**UOT 336**

# KORPORATİV MÜƏSSİSƏLƏRDƏ MALİYYƏ HESABATLARININ TƏŞKİLİNİN ƏSAS MƏQSƏDLƏRİ

**Pərvanə BARADOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 30 may 2025; çapa qəbul edilmişdir: 12 iyul 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 30th of May, 2025; accepted: 12th of Jule, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *korporativ struktur, maliyyə hesabatları, səhmdar, təsisçi, maliyyə dayanıqlığı*

## Giriş

Maliyyə hesabatları, müasir iqtisadiyyatın əsas alətlərindən biri olaraq müəssisələrin fəaliyyətinin izlənməsi və qiymətləndirilməsi üçün vacib informasiya mənbəyidir. Hər bir korporativ təşkilatın maliyyə vəziyyəti, fəaliyyətinin effektivliyi və gələcək inkişaf perspektivləri barədə əsas məlumatlar məhz maliyyə hesabatları vasitəsilə əldə edilir. Bu hesabatlar, müəssisələrin daxili və xarici istifadəçiləri üçün mühüm rol oynayır və onların qərar qəbul etmə proseslərinə təsir göstərir.

Maliyyə hesabatları müəssisələrin maliyyə vəziyyətini obyektiv şəkildə əks etdirmək üçün hazırlanır və bu hesabatlar istifadəçilərə müəssisənin gəlir və xərc strukturu, borc öhdəlikləri, maliyyə dayanıqlığı və gələcək dövrlərə dair proqnozlar barədə ətraflı məlumat təqdim edir. Müəssisə rəhbərliyindən tutmuş, səhmdarlara, kreditorlara, investorlar və vergi orqanlarına qədər geniş bir istifadəçi qrupu bu hesabatlardan faydalanır.

Bu hesabatların rolu yalnız maliyyə nəticələrinin açıqlanmasında deyil, həm də müəssisələrin inkişaf strategiyalarının müəyyənləşdirilməsi, resursların optimal idarə olunması, investisiya qərarlarının verilməsi və maliyyə risklərinin idarə olunması kimi mühüm sahələrdə özünü göstərir. Maliyyə hesabatları müəssisələrin şəffaflığını və hesabatlılığını təmin etməklə, bazar iştirakçılarına və maraqlı tərəflərə etibarlı və düzgün məlumatlar təqdim edir, bu da iqtisadi qərarların daha sağlam və məlumatlı şəkildə qəbul edilməsinə şərait yaradır.

## 1. Korporativ strukturların iqtisadiyyatda rolu və modelləri

Müasir bazar iqtisadiyyatı şəraitində iqtisadi fəaliyyətin əsas aparıcı qüvvəsi müəssisələrdir. Göstərilən bütün xidmətlər və istehlakçıya təqdim olunan məhsullar elə məhz bu təsərrüfat subyektləri müəssisələr tərəfindən cəmiyyətimizə təqdim edilir. Hazırkı dövrdə ölkəmizdə iqtisadiyyatın bütün sahələrində müxtəlif mülkiyyətə sahib olan müəssisələr mövcuddur. Müəssislərin növlərini aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür (4).

* *magistrant, Azərbaycan Turizm və Menecment Universiteti*
*e-mail:* parvana.omarli@outlook.com
**https://doi.org/10.30546/25194011.2025.14.4.081**

***Sxem 1.***

**Müəssisələrin təşkilati formaları**




**Mənbə:** *Sxem müəllif tərəfindən hazırlanmışdır.*

Müəssisələrin idarə edilməsi mürəkkəb bir mexanizmdir. Zaman keçdikcə, iqtisadiyyatın fəaliyyət növləri artdıqca və müəssisələrin böyüməsi ilə idarəetmədə korporativ idarəetmə kimi bir mexanizm formalaşdı. Hazırkı dövrdə həm dünyada, həm də ölkəmizdə korporativ idarəetmənin rolu artmaqdadır. Belə ki, zaman keçdikcə sahibkarlar böyüməkdə olan müəssisənin idarə edilməsini müəyyən şəxslərə ötürmək məcburiyyətində qaldılar. Ümumilikdə, korporativ idarəetmənin 3 əsas modeli mövcuddur (6).

***Sxem 2.***

**Korporativ idarəetmənin modelləri:**




**Mənbə:** *Sxem müəllif tərəfindən hazırlanmışdır.*

*İngilis-Amerikan* korporativ idarəetmə modelində sahibkarlar idarəetmədə birbaşa iştirak etmirlər. Sahibkarlar əmək haqqı ödəməklə idarəetməni və şirkətin hesabat vermə kimi məsuliyyətlərini menecerlərə həvalə edir. ABŞ, Kanada, Böyük Britaniya kimi ölkələr üçün bu idarəetmə modeli xasdır.

***Sxem 3.***

**İngilis-Amerika korporativ idarəetmə modelinin əsas iştirakçıları:**




**Mənbə:** *Sxem müəllif tərəfindən hazırlanmışdır.*

*Avropa modeli* özlüyündə iki ayrı modelə ayrılır: *alman və fransız korporativ idarəetmə modeli.* Bu modeldə dualizm prinsipləri mövcuddur və sərəncamvermə və nəzarət ayrı orqanlar tərəfindən icra edilir. Bu modeldə 3 pilləli idarəetmə sistemi var:

- Səhmdarların ümumi yığıncağı;
- Müşahidə Şurası;
- İcra orqanı.

*Yapon modeli* İngilis-Amerikan və Avropa modelləri ilə oxşarlıq təşkil etsə də bu modelin iştirakçıları fərqlidir. Bu modelin əsasını "keyretsu"lar təşkil edir. Yəni, iştirakçılar bankların idarəetmə heyəti, hökumət və keyretsulardır.

Ölkəmizdə korporativ idarəetmə yerli qanunvericilik, 1999-cu ildə İƏİT(İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) tərəfindən qəbul edilən və 2004-cü ildə yenidən işlənib hazırlanan prinsiplərə əsaslanaraq həyata keçirilir.

**2.Maliyyə hesabatlarının müəssisənin inkişafında rolu və keyfiyyət göstəriciləri**

Müasir iqtisadiyyatda informasiyanın rolu və onun inkişafı durmadan artır. Məlumdur ki, müəssisənin fəaliyyətinin əsas məqsədi mənfəət artımı və kapital artımıdır. Sahibkarların uğurlu işgüzar fəaliyyətinin əsasının təşkilində keyfiyyətli iqtisadi informasiyalar, daha dəqiq desək *maliyyə hesabatları* durur (3).

Maliyyə hesabatları səhmdarların investisiya qərarlarının qəbulunda, təchizatçıların, müştərilərin, işçilərin və digər partnyorların seçimində mühüm vasitə sayılır. Hazırkı dövrümüzdə maliyyə hesabatları həm də idarəetmə uçotunun əsas aləti sayılır. Belə ki, müəssisənin əsas idarəetmə orqanı, müşahidə şurası və menecerlər məhz maliyyə hesabatları vasitəsilə müəssisənin gələcək dövrləri üçün qərar qəbul edir, keçmiş dövrdə idarəetmədə olan nöqsanları aşkara çıxarır və bu əsasla da problemlərin aradan qaldırılmasına və müəssisənin müsbətə doğru inkişafına töhfə vermiş olurlar.

Korporativ müəssisələrin maliyyə hesabatlığının tam məcmusu beş əsas hissədən ibarətdir:

- *Mühasibat balansı;*
- *Mənfəət və zərər haqqında hesabat;*
- *Kapitalda dəyişikliklər haqqında hesabat;*
- *Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;*
- *Uçot siyasəti və izahlı qeydlər (3).*

Maliyyə hesabatlarının istifadəçiləri iki əsas qrupa bölünür: *daxili və kənar istifadəçilər.*

***Sxem 4.***

**Maliyyə hesabatlarının istifadəçiləri**




**Mənbə:** *Sxem müəllif tərəfindən hazırlanmışdır.*

*Təşkilatın rəhbərliyi* – maliyyə hesabatlarının əsas istifadəçilərindən biridir. Onlar idarəetmə qərarları vermək üçün maliyyə hesabatlarına, xüsusilə mühasibat balansına, mənfəət və zərərlər hesabatına əsaslanırlar. Bu hesabatlar rəhbərliyə pul vəsaitlərinin vəziyyəti, mənfəət, debitor borcları və əmək haqqı öhdəlikləri kimi əsas göstəricilərin dinamikasını analiz etməyə imkan verir. Rəhbərlik, həmçinin istehsal prosesi və vergi uçotu ilə bağlı məlumatlardan da istifadə edir. Maliyyə təhlili ilə məşğul olan bölmələr əsasən mühasibat hesabatlarının məlumatlarından istifadə edirlər. Bu məlumatların tərkibi təhlilin məqsədindən asılı olaraq dəyişir. Strateji qərarlar üçün bəzən yalnız son iki ilin deyil, bir neçə ilin ardıcıl məlumatları da tələb olunur.

*Təşkilatın işçi heyətini* – əsasən, həmin il əldə olunan mənfəətin ümumi həcmi, bu mənfəətdən formalaşan maddi təşviq fondları (mükafatlar, bonuslar və s.) və digər sosial ödənişlərin miqdarı maraqlandırır. Çünki bu göstəricilər onların gəlirinə və rifahına birbaşa təsir edir.

*Təsisçilər, səhmdarlar* və təsərrüfat cəmiyyətinin iştirakçıları təşkilata yatırdıqları kapitalın nə dərəcədə səmərəli istifadə olunduğunu bilmək istəyirlər. Onlar üçün əsas göstəricilərdən biri bir səhmə düşən mənfəət (yəni, hər bir səhm sahibinin nə qədər qazanc əldə etdiyini göstərən göstərici) və aktivlərin strukturudur (yəni, təşkilatın nə qədər və hansı növ resurslara sahib olması).

*İnvestorlar* isə daha çox təşkilatın maliyyə sabitliyi ilə maraqlanırlar. Yəni, təşkilatın qısa və uzunmüddətli borclarını vaxtında və tam şəkildə ödəmək bacarığı onlar üçün önəmlidir. Burada əsas diqqət yetirilən məqamlar borc öhdəliklərinin tərkibi, aktivlərin forması və bölgüsüdür. Amma bununla yanaşı investorlara əlavə məlumatlar da gərəklidir. Bunlara, təşkilatın fəaliyyətinin dövrlüyü (yəni işinin nə qədər intensiv və fasiləsiz aparılması), bağlanmış və icra olunan müqavilələrin sayı, məhsul istehsalının miqyası, görülən işlərin və göstərilən xidmətlərin həcmi və s.

*Kreditorlar,* yəni təşkilata borc verən və ya mal, xidmət təqdim edib ödəniş gözləyən hüquqi və ya fiziki şəxslər üçün ən əsas məsələ təşkilatın cari öhdəliklərini (müqavilə və ya öhdəliklər üzrə qısa müddətdə ödənilməli olan borclar) nə dərəcədə vaxtında və tam şəkildə ödəyə bilməsidir. Bu, onların maliyyə təhlükəsizliyi baxımından birbaşa önəmlidir. Əgər bir təşkilat borclarını gecikdirirsə və ya tam ödəyə bilmirsə, kreditorlar üçün bu, risk siqnalı kimi qəbul olunur. Kreditorları maraqlandıran əsas göstəricilərə cari öhdəliklərin yerinə yetirilmə qabiliyyəti, nizamnamə kapitalı, xüsusi kapital (sahibkar kapitalı), xalis aktivləri misal göstərə bilərik. Burada, cari öhdəliklərin yerinə yetirilmə qabiliyyəti dedikdə təşkilatın hazırda malik olduğu likvid aktivlər (məsələn, pul vəsaitləri, qısa müddətli debitor borcları və s.) hesabına qısa müddətli borclarını ödəmə qabiliyyətinin olması başa düşülür. Kreditorlar bu məlumatı təhlil edərək təşkilatla əməkdaşlığı davam etdirib-etdirməmək barədə qərar verə bilirlər. Xalis aktivlərin vəziyyətinə baxsaq, əgər xalis aktivlər müsbətdirsə, bu, təşkilatın sağlam maliyyə durumuna sahib olduğunu göstərir. Əks halda, bu, kreditorlar üçün xəbərdarlıq siqnalıdır. Xalis aktivlər təşkilatın ümumi aktivlərindən ümumi öhdəliklərin çıxılması nəticəsində qalan aktivlərdir. Nizamnamə kapitalı təşkilat yaradılarkən təsisçilər tərəfindən qoyulmuş ilkin vəsaiti göstərir. Onun həcmi təşkilatın maliyyə sabitliyinin və öhdəliklərinə zəmanət vermə imkanının ilkin göstəricilərindən biridir. Yüksək nizamnamə kapitalı kreditorlara bir növ "maliyyə etibarı" siqnalı verir. Sahibkar kapitalı(xüsusi kapital) aktivlərdən bütün öhdəliklər çıxıldıqdan sonra təşkilatın sahibində (və ya təsisçilərində) qalan dəyərin göstəricisidir. Bu halda kapitalın səviyyəsi, təşkilatın iflas edəcəyi halda borcların ödənilmə ehtimalını göstərir. Kreditorlar üçün təşkilatın maliyyə dayanıqlılığı və ödəniş qabiliyyəti prioritet məsələdir (3).

*Vergi orqanları* – təşkilatların vergi öhdəliklərini düzgün yerinə yetirməsini yoxla-

maq üçün maliyyə və mühasibat hesabatlarını izləyir və təhlil edir. Vergi bazasının müəyyən edilməsi məqsədilə dəqiq məlumatların (gəlir, mənfəət, əmək haqqı fondu və s.) təqdim edilməsi əsas prioritetlərdəndir. Mühasibat uçotu vasitəsilə gəlir və xərclər barədə toplanan məlumatlar vergi hesablamalarının əsasını təşkil edir.

*Statistika orqanları* – dövlət səviyyəsində iqtisadi və sosial siyasətin formalaşdırılması üçün lazımi məlumatları toplayır və emal edir. Makroiqtisadi göstəricilərin formalaşdırılması üçün Ümumi daxili məhsul (ÜDM), sənaye istehsalı, əhalinin gəlirləri, məşğulluq və digər indikatorlar üçün əsas mənbə mühasibat məlumatlarıdır. İqtisadiyyatın strukturunun izlənməsi üçün isə sektorlar üzrə dövriyyə, investisiya həcmi, aktivlərin yerləşməsi, maliyyə sabitliyi və s. barədə məlumatlar tələb olunur. Həmçinin təşkilatların təqdim etdiyi rüblük, illik və sahəvi hesabatlar əsasında analitik göstəricilər hazırlanır.

*Auditorlar* – bir təşkilatın yalnız maliyyə hesabatlarına deyil, ümumilikdə bütün təsərrüfat-maliyyə fəaliyyətinə diqqət yetirirlər. Onların məqsədi, təşkilatın maliyyə hesabatlarının düzgünlüyünü, şəffaflığını və etibarlılığını yoxlamaqdır. Onlar yalnız rəqəmləri yoxlamırlar, həm də bu rəqəmlərin haradan gəldiyini, necə hesablandığını və hansı əsaslara söykəndiyini araşdırırlar. Bu baxımdan, bütün fəaliyyət – satışlar, xərclər, investisiyalar, öhdəliklər və aktivlər auditorların maraq dairəsindədir. Maliyyə hesabatları auditorların məlumat ehtiyaclarını qarşılayacaq dərəcədə detallı və strukturlaşdırılmış olmalıdır. Bu, həm hesabatların daha şəffaf olmasına, həm də auditor yoxlamalarının daha effektiv və düzgün aparılmasına şərait yaradır.

*Maliyyə hesabatının keyfiyyət xüsusiyyətləri* – hesabatların etibarlı, istifadəyə yararlı və qərar qəbul etməyə kömək edən məlumatları necə təqdim etməli olduğunu göstərir. Bu xüsusiyyətlər, maliyyə hesabatlarının istifadəçilər üçün düzgün, aydın və məna daşımayan şəkildə hazırlanmasını təmin edir. Əsas keyfiyyət xüsusiyyətləri aşağıdakılardır:

*Münasiblik*– Məlumatın məqsədəuyğun və qərar qəbul edən şəxslər üçün faydalı olmasıdır. Bu təqdim olunan hesabatın onun mahiyyətinə və əhəmiyyətinə bağlılığının göstəricisidir.

*Əhəmiyyətlilik* dedikdə məlumatların iqtisadi qərar qəbul edən şəxslər üçün faydalı və dəyərli olması başa düşülür. Bu zaman əhəmiyyətli məlumatlar daxil edilməli, kiçik və təsirsiz məlumatlar isə xaric edilməlidir.

*Etibarlılıq* – məlumatların düzgün təqdimatı, müəssisənin fəaliyyətini obyektiv şəkildə əks etdirməsidir. Bu keyfiyyət göstəricisi düzgünlük, tamlıq, neytrallıq və etibarlılıq kimi xüsusiyyətləri özündə cəmləşdirir.

*Müqayisəlilik*– məlumatların istifadəçilərə müxtəlif dövrlər arasında fərqlərin başa düşülməsində kömək edir.

Müəssisə tərəfindən tətbiq olunan uçot metodları və siyasətləri bir dövr içərisində və ardıcıl dövrlərdə dəyişməməlidir. Buna maliyyə hesabatlarının ardıcıllıq göstəricisi deyilir.

*Ehtiyatlılıq* – qeyri-müəyyənlik olan hallarda aktivlərin və gəlirlərin qiymətləndirilməsində daha aşağı qiymətlərin, öhdəliklər və xərclərin isə daha yüksək qiymətləndirilməsini nəzərdə tutur.

*Anlaşıqlıq* – maliyyə hesabatlarının ən önəmli keyfiyyət göstəricisidir. Maliyyə hesabatlarında təqdim olunan məlumatların mahiyyəti istifadəçilər tərəfindən düzgün başa düşülməlidir. Bunun üçün istifadəçilərin kommersiya fəaliyyəti və mühasibat uçotu haqqında müəyyən biliklərə sahib olmaları vacibdir. Yalnız belə halda, onlar təqdim olunan informasiyanı dərk edə bilər və qərar qəbul etmə prosesində bu məlumatlardan düzgün şəkildə istifadə edə bilərlər (3).

**Nəticə**

Maliyyə hesabatlarının düzgün və şəffaf şəkildə hazırlanması korporativ idarəetmənin təməl sütunlarından biridir. Müasir dövrdə maliyyə məlumatlarının standartlara uyğun tərtib edilməsi, onların beynəlxalq maliyyə hesabatı standartlarına (BMHS) əsaslanması daha aktual məsələyə çevrilmişdir. Belə şəraitdə müəssisələrin hesabatlarının yalnız daxili istifadə üçün deyil, həm də beynəlxalq səviyyədə etibarlı və müqayisəli olması vacib amillərdən biridir. Bu isə, öz növbəsində, maliyyə hesabatlarının keyfiyyətli şəkildə təşkili məsələsini gündəmə gətirir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının Qərarı: Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları. Bakı şəhəri 30 yanvar 2017-ci il № Q-01 (https://e-qanun.az/framework/34909).
2. Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 iyun 2004-cü il № 716-IIQ. (https://e-qanun.az/framework/5458).
3. Səbzəliyev S. Maliyyə hesabatı (dərslik). Bakı: İqtisad Universiteti, 2018, 314 s. (https://unec.edu.az/application/uploads/2019/09/S.S-bz-liyev-Derslik_Maliyy-Hesabat-.pdf).
4. Şahbazov K., Məmmədov M., Həsənov H. Menecment (dərslik). Bakı, 2007, s. 196-291. (https://library.unec.edu.az/images//MENECMENT_DRSLIK%20%C5%9 Eahbazov.pdf).
5. Штефан М., Замотаева О., Максимова Н. Бухгалтерская (финансовая) отчетность организации. Москва: Издательство Юрайт, 2025, 340 с.
6. Tricker B. Corporate Governance: Principles, Policies, and Practices. Oxford University Press, 2019, 568 p.



***Резюме***

***Парвана Барадова***

***Основные цели организации финансовой отчетности в корпоративных предприятиях***

Организация финансовой отчетности в корпоративных предприятиях и её роль в процессе принятия экономических решений представляет собой важный и многогранный аспект в условиях современной бизнес-среды. В условиях глобализированной и конкурентной экономики заинтересованные стороны – инвесторы, акционеры, кредиторы, государственные органы и регулирующие учреждения – нуждаются в достоверной, своевременной и сопоставимой финансовой информации для принятия обоснованных экономических решений. Финансовая отчетность служит основным инструментом для передачи информации о финансовом состоянии предприятия, результатах его деятельности и перспективах развития. Основные функции финансовой отчетности – прозрачность, подотчётность и информационное обеспечение – играют ключевую роль в формировании доверия между предприятием и его внутренними и внешними заинтересованными сторонами. Прозрачность означает, что пользователи могут ясно видеть финансовую деятельность и риски предприятия. Подотчётность отражает ответственность руководства за предоставление справедливой и достоверной информации. Предоставление высококачественной финансовой информации имеет решающее значение для принятия эффективных решений, стратегического планирования, оценки рисков и обеспечения долгосрочной устойчивости. В связи с этим точное, последовательное и своевременное составление финансовой отчетности необходимо для объективного отражения реального финансового положения предприятия. Кроме того, применение Международных стандартов финансовой отчётности (МСФО) играет важную роль в повышении надёжности, сопоставимости и объективности финансовой отчетности. Внедрение МСФО позволяет предприятиям функционировать в соответствии с международными стандартами, что укрепляет доверие инвесторов и облегчает доступ к глобальным финансовым рынкам. Применение МСФО также способствует снижению информационной асимметрии и совершенствованию корпоративного управления. В исследовании также подчёркивается влияние цифровизации и технологических инноваций – в частности автома-

тизации, облачных бухгалтерских систем и искусственного интеллекта – на организацию и эффективность финансовой отчетности. Эти технологии снижают количество человеческих ошибок, ускоряют операции, повышают точность данных и делают возможным составление отчетности в режиме реального времени. В результате современные предприятия способны оперативно реагировать на изменяющиеся требования и ожидания регулирующих органов. В заключение следует отметить, что финансовая отчётность должна рассматриваться не только как юридическое обязательство, но и как стратегическая функция, непосредственно связанная с устойчивостью предприятия и его способностью создавать стоимость. Её основная цель – предоставление точной, полной и сопоставимой информации о финансовом положении и результатах деятельности предприятия, что служит фундаментом для эффективного принятия решений и надлежащего корпоративного управления – как на национальном, так и на международном уровне.

**Ключевые слова:** *корпоративная структура, Финансовая отчетность, Акционер, Учредитель, Финансовая устойчивость*

***Summary***

***Parvana Baradova***

***Maın Objectıves of Fınancıal Reportıng Organızatıon ın Corporate Enterprıses***

The organization of financial reporting in corporate enterprises and its role in the economic decision-making process represent a critical and complex issue in the contemporary business environment. In today's globalized and highly competitive economy, stakeholders require reliable, timely, and comparable financial information to make informed economic decisions. Financial reporting serves as a fundamental tool for communicating the financial health, operational results, and future prospects of an enterprise. The key functions of financial reporting – namely transparency, accountability, and information provision – play a decisive role in building trust between the enterprise and its internal and external stakeholders, including shareholders, investors, creditors, regulatory authorities, and government agencies. Transparency in financial reporting ensures that users of financial statements can clearly understand the financial activities and risks of the organization. Accountability refers to the responsibility of the management to report accurate and fair information, reflecting the economic reality of the enterprise. The provision of high-quality financial information facilitates effective decision-making, strategic planning, risk assessment, and long-term financial stability. Therefore, the accurate, consistent, and timely preparation of financial statements becomes essential in presenting a true and fair view of the enterprise's financial condition. Furthermore, the application of International Financial Reporting Standards (IFRS) is emphasized as a critical factor in enhancing the reliability, comparability, and integrity of financial reporting across different jurisdictions. IFRS adoption enables enterprises to align their reporting practices with international norms, thereby increasing investor confidence and facilitating access to global capital markets. The harmonization of financial reporting through IFRS also contributes to the reduction of information asymmetry and supports sound corporate governance practices. In addition, the study underscores the impact of digitalization and technological advancements – such as automation, cloud-based accounting systems, and artificial intelligence – on the organization and efficiency of financial reporting. These innovations not only reduce human error and increase operational speed but also improve data accuracy and facilitate real-time reporting. Consequently, modern enterprises can respond more effectively to the dynamic needs of stakeholders and regulatory bodies. In conclusion, financial reporting in corporate enterprises should be regarded not merely as a compliance requirement, but as a strategic function integral to the enterprise’s sustainability and value creation. Its primary objective remains the provision of accurate, complete, and comparable information regarding the enterprise’s financial performance and position, which forms the cornerstone of informed decision-making and effective corporate governance in both local and international contexts

**Key words:** *Corporate structure, Financial statements, Shareholder, Founder, Financial stability.*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.